*Azərin Piriyeva,*
*70 saylı məktəb-liseyin 11-ci sinif şagirdi*



## *Gedəsən*

*Ayırıb dünyada ağı qaradan,*
*Yalanı, yanlışı sanıb gedəsən.*
*E. Eyvazlı*

*Yaşaya bilməzsən həyat yalansa,*
*Əvvəli, axırı eyni məkansa,*
*Sonuncu mənzilin soyuq torpaqsa,*
*Gedirsən, bu başdan yanıb gedəsən.*

*Nəyin var, nəyin yox, bu dünyanındır,*
*Bu dünya sadəcə yaradanındır.*
*Yaşanan onsuz da yaşanmalıydı,*
*Yaşayıb, axırda çıxıb gedəsən.*

*Gəl, anla həyatın mənasını sən,*
*"Həyatdı", deyərək keçmə üstündən,*
*Qalan qalacaqdır, sən gedəcəksən,*
*Yaxşıca yaşayıb, yaxşı gedəsən.*

Ədalət.- 2021.- 6 mart.- S.8.